# Mühüm mərhələnin başlanğıcı

## Kaya Kallasın səfəri Azərbaycan-Avropa İttifaqı münasibətlərində yeni səhifə açır



**"Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın ölkəmizə səfəri Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından olduqca əhəmiyyətli bir addımdır. Bu səfər bir daha sübut etdi ki, Azərbaycan regionda etibarlı tərəfdaş kimi qəbul olunur və beynəlxalq əməkdaşlıqda mühüm aktora çevrilib".**

Bunu Milli Məclisin deputatı Kamran Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib.

K.Bayramov qeyd edib ki, Azərbaycanın həyata keçirdiyi balanslı və müstəqil xarici siyasət, o cümlədən, Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə yüksək qiymətləndirilir. Kaya Kallasın səfəri bu reallığın bir daha təsdiqidir. Xüsusilə, Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi üzərində aparılan danışıqlar kontekstində bu səfər müsbət dinamikanın davamı kimi qiymətləndirilməlidir. Azərbaycan-Aİ münasibətləri qarşılıqlı hörmət və bərabərhüquqlu tərəfdaşlıq prinsipləri əsasında qurulur.

Deputat diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallası qəbul etməsi, Azərbaycan-Aİ münasibətlərində yeni və mühüm mərhələnin başlanğıcı kimi dəyərləndirilə bilər. Bu görüş tərəflər arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi və hüquqi çərçivənin formalaşdırılması baxımından əhəmiyyətli dönüş nöqtəsi sayılmalıdır: "Dövlətimizin başçısı Kaya Kallası qəbul edərkən Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu dedi və "Cənub qaz dəhlizi"nin 4 ildir fəaliyyət göstərərək Avropanın qaz təchizatında oynadığı əhəmiyyətli rola toxundu. "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində Azərbaycanla Avropa İttifaqı arasında uğurlu və səmərəli dialoqun mövcud olduğunu deyən dövlətimizin başçısı bərpaolunan enerji sahəsində də əməkdaşlıq üçün böyük imkanların olduğunu bildirdi".

Deputatın sözlərinə görə, öz növbəsində Kaya Kallas Avropa İttifaqının Azərbaycanla əlaqələri yüksək dəyərləndirdiyini və bu münasibətləri daha da inkişaf etdirməkdə maraqlı olduğunu qeyd edib. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində çox uğurlu və səmərəli əməkdaşlığın olduğunu vurğulayan qonaq ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş rolunda çıxış etdiyini deyib. O, nəqliyyat bağlantıları mövzusuna toxunaraq, bu xüsusda da çox mühüm regional bir dövlət olan və vacib geosiyasi məkanda yerləşən Azərbaycanın rolunun əhəmiyyətini vurğulayıb.

K.Bayramov əlavə edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu xarici siyasət nəticəsində Azərbaycan Avropa üçün mühüm tərəfdaşa çevrilib: "Hesab edirəm, bu səfər və keçirilən görüşlər, Azərbaycan-Aİ münasibətlərinin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi baxımından əhəmiyyətli bir addımdır. Artıq Brüsseldə Azərbaycanın geosiyasi əhəmiyyəti təkcə enerji ehtiyatları ilə deyil, həm də regionda sabitliyin qorunmasındakı rolu, nəqliyyat dəhlizlərinin mərkəzində yerləşməsi və gələcəyə yönəlik "yaşıl enerji" layihələrindəki fəallığı ilə qiymətləndirilir. Avropa İttifaqı üçün enerji yalnız iqtisadi yox, həm də siyasi və təhlükəsizlik baxımından prioritet sahədir. Bu baxımdan Azərbaycan Aİ üçün sadəcə enerji təchizatçısı deyil, ümumi enerji təhlükəsizliyinin formalaşmasında əsas strateji tərəfdaş kimi qəbul olunur ki, bu da qurumun yeni geosiyasi reallıqları düzgün dəyərləndirdiyini göstərir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 27 aprel (№84).- S.6.